**ÜMUMİ TƏHSİL SAHƏSİ ÜZRƏ 2010-CU İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT**

**Kənd rayonları üzrə ümumi təhsil**

2010-cu ildə şöbənin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" 2007-ci il 04 sentyabr tarixli 2373 nömrəli Sərəncamının icrası, TSİL çərçivəsində "Kurikulum islahatı" alt komponenti üzrə icra planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı və Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı üzrə Dövlət Proqramlarının icrası istiqamətində Fəaliyyət Planlarının reallaşdırılması, beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində işlərin təşkili, mərkəzləşdirilmiş imtahanların keçirilməsi ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrası və digər məsələlərin həllinə yönəldilmişdir.

Hesabat dövründə Təhsil Sektorunun Inkişafi Layihəsi çərçivəsində «Kurikulum islahatı» alt-komponenti üzrə görülmüş işlərə dair rüblük hesabatlar hazırlanmış, DB-dən, SİTO beynəlxalq məsləhətçi şirkətindən daxil olan hesabat və digər sənədlər araşdırılıb müvafiq sənədlər tərtib olunmuşdur.

2010/2011-ci dərs ilində III siniflərdə yeni kurikulumların tətbiqi ilə əlaqədar hazırlıq işləri aparılmış, tanınmış mütəxəssislərin, müəllimlərin, ümumtəhsil məktəbləri rəhbərlərinin, ictimaiyyətin nümayəndələrinin iştirakı ilə geniş müzakirələr keçirildikdən sonra Nazirliyin 23.07.2007-ci il tarixli, 923 nömrəli əmri ilə respublikanın təlim Azərbaycan və qeyri dillərdə aparılan ümumtəhsil məktəblərinin I-IV siniflər üçün yeni fənn kurrikulumları və tədris planları təsdiq edilmişdir.

Kənd rayonları üzrə ümumi təhsil şöbəsi tərəfindən görülən digər işlər aşağıdakılardan ibarətdir:

**1.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının icrası ilə əlaqədar:

- **1.1.** "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" Nazirlər Kabinetinin 03.06.2010-cu il tarixli, 103 nömrəli qərarı ilə təsdiq edilmişdir.
- **1.2.** "Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltif olunma Qaydası" Nazirlər Kabinetinin 14.01.2010-cu il tarixli, 8 nömrəli qərarı ilə təsdiq edilmişdir.
- **1.3.** "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları" Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli, 82 nömrəli qərarı ilə təsdiq edilmişdir.
- **1.4.** "Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti" Nazirlər Kabinetinin 04.06.2010-cu il tarixli, 104 nömrəli qərarı ilə təsdiq edilmişdir.
- **1.5.** "Ümumi təhsilin təhsil səviyyələri üzrə müddəti, bir səviyyədən digər səviyyəyə keçid Qaydaları" Nazirlər Kabinetinin 22.06.2010-cu il tarixli, 115 nömrəli qərarı ilə təsdiq edilmişdir.
- **1.6.** "Azərbaycan Respublikası ümumtəhsil məktəbinin nümunəvi Nizamnaməsi"nin layihəsi hazırlanıb Nazirlər Kabinetinə təqdim olunmuşdur.
- **1.7.** "Formal təhsilin təşkili Qaydaları təsdiq edilmişdir.

**2.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 19.12-ci bəndinin icrası ilə əlaqədar "Ümumtəhsil məktəblərinin I sinfinə uşaqların vaxtından əvvəl qəbulu Qaydaları" hazırlanıb təsdiq edilmişdir.

**3.** “Şagirdlərin ümumtəhsil məktəblərinə qəbulu və yerdəyişməsi haqqında Qaydalar” təsdiq edilmişdir.

**4.** İstedadlı şagirdlər üçün bir V xüsusi lisey sinfinin təşkili barədə Təhsil nazirinin 22.06.2010-cu il tarixli, 835 nömrəli əmri hazırlanmışdır. Həmin liseylər üçün Gəncə, Mingəçevir, Sumqayıt, Şirvan şəhərləri və Quba, Ağdaş, Şəki, Lənkəran rayonlarının hər birindən 1 məktəb seçilmişdir. Həmin V sinfin tədris planı təsdiq olunmuş, şagird qəbulu və müəllimlərin seçilməsi ilə əlaqədar təşkilati işlərin görülməsinə başlanmışdır.

**5.** 2010-2011-ci dərs ili üçün ümumtəhsil məktəblərinin tədris planları hazırlanmış, Nazirliyin 12.06.2010-cu il tarixli, 784 və 785 nömrəli əmrləri ilə təsdiq olunmuş, kitabça şəklində 5000 nüxsə çap edilib yerlərə çatdırılmışdır. Həmçinin lisey və gimnaziyaların, sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsil müəssisələrinin tədris planları da hazırlanıb təsdiq edilmişdir.

**6.** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə 20.04.2010-cu il tarixdə inşa yazı müsabiqəsinin respublika mərhələsi keçirilmişdir. Qaliblərin inşa yazılarından ibarət “Heydər Əliyev məktəblilərin gözü ilə” adlı kitab nəşr edilmiş, onlara diplomlar, müxtəlif təşkilatlar tərəfindən hədiyyələr və pul mükafatları verilmişdir. İnşa yazı müsabiqəsinin qaliblərindən 18 nəfəri Heydər Əliyev Fondu tərəfindən Fransa, Belçika, Almaniya və Hollandiya dövlətlərinə səyahətə göndərilmişdir.

**7.** 2010-cu ilin mart ayında məktəblilərin fənn olimpiadalarının 7 fənn üzrə respublika turu keçirilmişdir. Həmin turda 1138 şagird iştirak etmişdir. Onlardan 346 nəfər I-IV yerləri tutmuşdur. O cümlədən: I yer-23 nəfər, II yer- 38 nəfər, III yer- 61 nəfər, IV yer-224 nəfər olmuşdur. Respublika olimpiadasında qalib gəlmiş şagirdlər diplom və fəxri fərmanlarla təltif olunmuş, I dərəcəli diplom almış şagirdlərin müəllimlərinə pul mükafatı verilmişdir.

**8.** Laçın rayonu Minkənd kənd tam orta məktəbinin 120 illik və Xocavənd rayonu Tuğ kənd tam orta məktəbinin 125 illik, Şuşa şəhər 1 nömrəli tam orta məktəbin 180 illik yubileyləri mütəşəkkil və yüksək səviyyədə qeyd olunmuşdur.

**9.** 2010-cu il aprelin 27-dən mayın 3-dək Bakı şəhərində məktəblilərin kimya üzrə 44-cü Beynəlxalq Mendeleyev Olimpiadası keçirilmişdir.

Olimpiadanın təşkili üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09 mart 2010-cu il tarixli 51s nömrəli sərəncamına əsasən beynəlxalq və respublika səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər üzrə 2010-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitdən 220750 (iki yüz iyirmi min yeddi yüz əlli) manat pul ayrılmış, Təhsil Nazirliyinin rəhbərliyinin və məsul işçilərinin, aparıcı universitet rektorlarının, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin professor-müəllim heyəti nümayəndələrinin təmsil olunduqları geniş tərkibli Təşkilat Komitəsi, Azərbaycanın, Rusiyanın və digər bir sıra ölkələrin kimyaçı alimlərinin və mütəxəssislərinin daxil olunduğu Münsiflər Heyəti yaradılmışdır.

Mendeleyev Olimpiadasının açılışı 2010-cu il aprelin 28-də, bağlanışı isə mayın 3-də “The Crescent Beach Otel”də olmuşdur. Olimpiadada Azərbaycan da daxil olmaqla 14 ölkədən, o cümlədən Bolqarıstan, Ukrayna, Belarus, Özbəkistan, Moldova, Tacikistan, Litva, Rusiya, Qazaxıstan, Türkmənistan, Rumıniya, Makedoniya və Qırğızıstandan ümumilikdə 87 şagird və 21 nəfər komanda rəhbəri iştirak etmişdir.

Olimpiadanın açılış və bağlanış mərasimlərində bir sıra ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin əməkdaşları və media nümayəndələri iştirak etmişlər. Olimpiadanın yekununda qaliblər müvafiq olaraq qızıl, gümüş, bürünc medallarla, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

Yarışda 12 nəfərlə təmsil olunmuş Azərbaycan komandası üzvlərindən Aqil Əzimzadə qızıl, Rəşad Yusifov, Aqil Səfərəlizadə və Vüqar Mirzəxanov bürünc medalla təltif olunmuşlar.

Məktəblilərin kimya üzrə 44-cü Beynəlxalq Mendeleyev Olimpiadasının yüksək səviyyədə təşkili və keçirilməsinə görə Avroasiya Universitetləri Assosiasiyasının prezidenti, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor Viktor Anatolyeviç Sadovniçiy və Beynəlxalq Mendeleyev Olimpiadasının həmsədri, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsinin dekanı, Rusiya Elmlər Akademiyasının akademiki, professor Valeri Vasilyeviç Lunin Azərbaycan

Respublikasının Prezidenti cənab İlham Əliyevə və Azərbaycan Respublikasının Təhsil nazirinə təşəkkür məktubu ünvanlamışlar.

**10.** Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli, 1414 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nın icrası ilə bağlı Nazirliyin Fəaliyyət planına (2.4 və 7.4-cü bəndlər) əsasən yerlərdə riyaziyyat, fizika, kimya və biologiya fənləri üzrə aşkara çıxarılmış istedadlı VIII-X sinif şagirdləri arasından ən istedadlılarını müəyyənləşdirmək məqsədilə 2010-cu ilin mayında Bakı şəhərində tanınmış alim və mütəxəssislərin iştirakı ilə təkrar seçim turu təşkil olunmuşdur.

Seçim prosesində riyaziyyat fənnindən 311, fizika fənnindən 209, kimya fənnindən 172, biologiya fənnindən 250 nəfər, cəmi 942 nəfər şagird iştirak etmişdir. Yekun seçim turunda ötən illə müqayisədə 321 nəfər, o cümlədən riyaziyyatdan 92, fizikadan 78, kimyadan 41, biologiyadan 110 nəfər artıq şagird iştirak etmişdir. Qaliblər xüsusi diplomlarla təltif edilmişlər. Seçim turunun yekunları Təhsil nazirinin 29.06.2010-cu il tarixli, 874 nömrəli əmri ilə rəsmiləşdirilmişdir.

**11.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" 2007-ci il 04 sentyabr tarixli, 2372 nömrəli Sərəncamının icrası ilə əlaqədar 2009/2010-cu dərs ilində də müsabiqələrin səmərəli keçirilməsi məqsədilə Təhsil Nazirliyinin rəhbərliyi və məsul əməkdaşları, milli və beynəlxalq qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət ictimai əsaslarla fəaliyyət göstərən Təşkilat Komitəsi, hər iki müsabiqədə iştirak üçün təqdim edilmiş sənədləri qeydiyyata almaq və "Qaydalar"da müəyyən edilmiş şərtlər üzrə onların ekspertizasını aparmaq üçün ekspert qrupları yaradılmışdır. 2009/2010-cu dərs ilində də Naxçıvan MR üçün "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinə 3, "Ən yaxşı müəllim" müsabiqəsinə 5 kvota ayrılmışdır.

Müsabiqənin təşkili, keçirilməsi və yekunlaşdırılmasının gedişi vəziyyəti aşağıdakı kimi olmuşdur.

***"Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsi üzrə:***

Müsabiqədə iştirak üçün Təşkilat Komitəsinə respublikanın əksər bölgələrini təmsil edən 123 məktəb müraciət etmişdir. Əvvəlki illərdə olduğu kimi, bu il də iştirakçılar arasında Bakı şəhərinin məktəbləri üstünlük təşkil etmiş, 123 məktəbdən 49-u (57 faiz) Bakı şəhərinin məktəbləri olmuşdur. Builki müsabiqədə Təhsil Nazirliyi nəzdindəki ümumi təhsil müəssisələrindən yalnız respublika incəsənət gimnaziyası iştirak etmişdir. Qalan 73 məktəb isə 34 kənd rayonunu (65 məktəb) və 3 şəhəri (8 məktəb) təmsil etmişdir.

123 məktəbin təqdim etdiyi sənədlər ekspertizadan keçirildikdən sonra 96 məktəbin müsabiqənin II mərhələsinə buraxılması nəzərdə tutulmuşdur. Bunlardan 47-si Bakı şəhərinin, 4-ü İsmayıllı rayonunun, hər birindən 3 olmaqla Sumqayıt və Şirvan şəhərlərinin, Quba, Hacıqabul, Ağstafa rayonlarının, hər birindən 2 olmaqla Gəncə şəhəri, Tovuz, Qəbələ, Ucar, Qazax, Kürdəmir, Qubadlı rayonlarının və hər birindən 1 olmaqla 15 rayonun (Şamaxı, Qax, Şəmkir, Yevlax, Lənkəran, Salyan, Masallı, Göyçay, Bərdə, Goranboy, Neftçala, Qusar, İmişli, Saatlı, Cəlilabad) məktəbləri və respublika incəsənət gimnaziyası olmuşdur.

Müsabiqənin hər 3 mərhələsinin yekununa görə, 47 məktəb qalib hesab edilmişdir. Qaliblərin 28-i Bakı şəhərinin, 4-ü İsmayıllı rayonunun, 3-ü Sumqayıt şəhərinin, 3-ü Şirvan şəhərinin, hər birindən 1 məktəb olmaqla Gəncə şəhərinin, Qəbələ, Ucar, Göyçay, Qax, Tovuz, Şəmkir, Quba rayonlarının məktəbləri və respublika incəsənət gimnaziyasıdır.

***"Ən yaxşı müəllim" müsabiqəsi üzrə:***

Müsabiqədə iştirak üçün 460 nəfər müəllim sənəd təqdim etmişdir. Müsabiqə şərtlərinə uyğun gəlmədiyi üçün 9 nəfərin sənədləri qəbul edilməmişdir. Beləliklə, 451 nəfərin sənədləri ekspertizadan keçirilmişdir.

Bunlardan 206-sı Bakı, 51-i Sumqayıt şəhərinin məktəblərindən, 40-ı Nazirlik nəzdindəki müəssisələrdən, 2-si universitet nəzdindəki, 3-ü özəl məktəblərdən, 149-u isə digər rayon və şəhərlərin məktəblərindən olmuşdur.

Təşkilat Komitəsinin qərarına əsasən, minimum 1.3 bal növbəti mərhələyə keçid üçün məqbul hesab edilmiş, 1.3 və daha çox bal toplayan 203 nəfər nöbvbəti mərhələdə iştirak etmək

hüququ qazanmışdır. Bunlardan 3 nəfəri obyektiv səbəblərdən ikinci mərhələyə gələ bilməmişdir.

Müsabiqənin yekununda hər üç mərhələnin balları əsasında müəllimlərə yekun bal müəyyən edilmiş və ən yüksək nəticə göstərən 95 nəfər müəllim qalib hesab olunmuşdur.

Qaliblərin siyahısına daxil olan müəllimlərdən 50-si (52.63%) Bakı şəhərinin, 18-i Nazirlik nəzdindəki, 8-i Sumqayıt şəhərinin, 3-ü İsmayıllı, 2-si Qazax rayonunun, 2-si BSU nəzdindəki humanitar liseyin və hər birindən 1 nəfər olmaqla Mingəçevir şəhəri, Abşeron, Ağsu, Bərdə, Füzuli, Hacıqabul, Kürdəmir, Laçın, Şəmkir, Siyəzən, Tovuz, Xaçmaz rayon məktəblərinin müəllimləridir. Onlardan 27-si ibtidai sinif, 19-u ingilis dili, 8-i tarix, 7-si Azərbaycan dili və ədəbiyyat, 6-sı fizika, hər birindən 4 nəfər olmaqla coğrafiya, fiziki tərbiyə, informatika, kimya, riyaziyyat, 3-ü biologiya, 2-si rus dili və ədəbiyyat, hər birindən bir nəfər olmaqla əmək hazırlığı, fransız dili və təsviri incəsənət müəllimləridir.

**12.** UNESCO-nun "Cənubi Qafqaz Avropanın bir hissəsi" layihəsi çərçivəsində Litvanın paytaxtı Vilnüsdə keçirilmiş seminarda şöbənin əməkdaşı iştirak etmiş, Seminarının yekunu barədə Nazirliyin rəhbərliyinə geniş arayış təqdim edilmişdir (25 fevral – 2 mart 2010-cu il).

**13.** İsveçrənin Ali Təhsil üzrə Milli Agentliyinə Azərbaycan Respublikasının Milli Kurikulumunu və I-IV siniflər üçün fənn kurikulumları vəsaitləri göndərilmişdir.

**14.** UNESCO-dan daxil olmuş "UNESCO Dünya İrsiyyəti Təhsil Proqramı" üzrə "Patrimanito Beynəlxalq Hekayə lövhəsi müsabiqəsi 2010-2011" müsabiqəsinin sənədləri və şərtlərinin "Assosiativ Məktəblər Layihəsi"nin (ASP) üzvü olan məktəblərə çatdırılmış və müsabiqədə iştirak etmək üçün tövsiyyələr verilmişdir.

**15.** Yaponiyada 2011-ci ilin iyul-avqust aylarında keçirilməsi nəzərdə tutulmuş 16-cı Beynəlxalq Kanaqava Dünya Uşaqlarının Bədii Sərgisi ilə bağlı Xarici İşlər Nazirliyindən daxil olmuş materiallar çoxaldılaraq bütün rayon (şəhər) Təhsil Şöbələrinə göndərilmişdir. ASP layihəsinin üzvü olan məktəblərin şagirdlərinin həmin müsabiqədə iştirakını təmin etmək üçün məktəb rəhbərləri ilə müvafiq söhbət aparmışdır.

**16.** 16.İREX Beynəlxalq Təşkilatının İREX/MYP layihəsi ilə bağlı yerlərə təlimati məktublar və layihənin başa çatması ilə əlaqədar təqdimat hazırlanmışdır.

**17.** 17.ABŞ-ın ACCELS təşkilatının FLEX Proqramı üzrə növbəti müsabiqəsinin keçirilməsi barədə Naxçivan MR Təhsil Nazirliyinə, Bakı və Gəncə Şəhər Təhsil İdarələrinə, Şəki, Mingəçevir və Lənkəran Şəhər Təhsil Şöbələrinə məktublar hazırlanmışdır.

**18.** AZETA təşkilatının Xəzər Universitetində keçirdiyi 7-ci Beynəlxalq Konfransında şöbənin əməkdaşı iştirak etmişdir (noyabr 2010-cu il).

**19.** 2009-2010-cu dərs ilində V-XI siniflər üzrə biologiya, kimya, ümumi tarix, texnologiya, fizika, xarici dil, fiziki tərbiyə, informatika, təlimi digər dillərdə olan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənn kurikulumları layihələri hazırlanmış, "Azərbaycan müəllimi" və P.S. qəzetlərində, "Kurikulum" elmi-metodik jurnalında dərc edilmişdir.

Eləcə də həmin fənn kurikulumlarının layihələri üç dildə (Azərbaycan, ingilis, rus) www.kurikulum.az portalında geniş ictimaiyyətin müzakirəsinə verilmişdir. Şagirdlərin, müəllimlərin, valideynlərin və ictimaiyyətin digər nümayəndələrinin maarifləndirilməsi və dəstəklənməsi üçün nəzərdə tutulmuş www.kurikulum.az portalının təkmilləşdirilməsi üzrə işlər aparılmışdır: portalda fənn kurikulumları, nümunəvi elektron dərslər, habelə ixtiyari dərslər və onların ekspertlər tərəfindən təhlilinin elektron versiyaları, dərs planları, müxtəlif treninqlərin materialları, təlim və oxu materialları kataloqu, elektron dərs vəsaitləri, aparılmış tədqiqatların nəticələrini əks etdirən hesabatlar, KİV-də kurikulum islahatı ilə bağlı təşkil olunmuş verilişlərin elektron versiyaları, "Kurikulum" jurnalında dərc olunmuş yazıların elektron versiyaları yerləşdirilmişdir.

Portalın sual-cavab bölməsində ictimaiyyəti narahat edən 57 sual cavablandırılmışdır. Eləcə də Bakı şəhərinin 5, 18 nömrəli məktəblərində kurikulumların tətbiqi ilə əlaqədar seminarlar, nümunə dərsləri və sərgilər təşkil edilmişdir.

Yeni fənn kurikulumlarının tətbiq olunduğu siniflərdə təlimin təşkili məsələlərini öyrənmək, müəllimlərə və məktəb rəhbərlərinə əməli köməklik göstərmək məqsədilə Gəncə, Mingəçevir şəhər, Bərdə, Şəmkir, Balakən, Salyan, Beyləqan, Yardımlı, Qusar, Saatlı, Gədəbəy,

Biləsuvar, Oğuz, Siyəzən rayonlarında tədqiqatlar keçirilmişdir. Tədqiqatların nəticələri pedaqoji mətbuatda geniş işıqlandırılmışdır.

Respublıkanın bütün şəhər və rayonları üzrə müəyyən edilmiş zonalarda Maarifləndirmə Mərkəzlərinin yaradılması məqsədi ilə nümunəvi fəaliyyət planları və tövsiyələr hazırlanmışdır. Respublika miqyasında ictimaiyyətin maarifləndirilməsi məqsədi ilə AzTV, Lider, Space, İctimai TV-lərdə interaktiv verilişlər keçirilmiş, əhalinin sualları mütəxəssislər tərəfindən cavablandırılmış, mühüm məsələlərlə bağlı məlumatlandırılması təmin edilmişdir. İctimai televiziyada "Açıq dərs" verlişinin bir neçə buraxılışı, Tovuz, Gəncə, Naxçıvan və digər regional TV-lərdə təşkil edilən dəyirmi masalar kurikulum islahatları barədə ictimaiyyətin maarifləndirilməsinə həsr edilmişdir.

Kənd rayonlarında ümumtəhsil məktəbləri olmayan yaşayış məntəqələri, ibtidai və ümumi orta məktəblərdən ən yaxın məsafədə yerləşən tam orta məktəblər haqqında məlumatlar toplanılaraq ümumiləşdirilmişdir.

Təhsil Nazirliyinin 4 mart 2010-cu il tarixli 272 №li əmrinə əsasən fənn kurikulumlarının tətbiqi sahəsində təhsil işçilərinə peşəkar səviyyəli metodik köməkliyin təmin olunmasına xidmət edən seçmə yolla BŞTİ-nin məsləhətçiləri və metodistləri, məktəb direktorları, direktor müavinləri, ibtidai sinif və fənn müəllimlərindən ibarət tərkibdə təlimçilər qrupunun hazırlanması üçün Bakı şəhərinin 11 rayonunda 10 günlük treninqlər təşkil olunmuşdur. Adı çəkilən kurslara Bakı şəhərinin rayonlarından 230 nəfər cəlb edilmişdir. Treninq başa çatdıqdan sonra onlara sertifikatlar verilmişdir.

**20.** "Öyrədənləri öyrədən" statusu almış təlimçilərin fəaliyyətinin gücləndirilməsi məqsədilə Təhsil nazirinin 29.06.2010-cu il tarixli, 874 nömrəli əmri hazırlanmışdır.

**21.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 aprel 2010-cu il tarixli, 11/185 nömrəli əmri ilə Məktəbəqədər təhsilin kurikulumunu hazırlamaq məqsədi ilə işçi qrupu yaradılmış, məktəbəqədər təhsilin strukturu, fəaliyyət istiqamətləri, ümumi təlim nəticələri və 3-4 yaşlı uşaqlar üçün təlim nəticələri müəyyən edilmişdir.

**22.** TSİL çərçivəsində hazırlanmış V-XI siniflər üzrə fənn kurikulumları layihələrinin təkmilləşdirilməsiişi davam etdirilmiş, Azərbaycan tarixi fənn proqramının (kurikulumunun) layihəsi hazırlanmış, onun layihə variantı ictimai müzakirə üçün maraqlı qurumlara göndərilmiş, dövri pedaqoji mətbuatda dərc edilmişdir.